# Dövlət qulluğu haqqında ARQ

| *Dövlət qulluğunun vəzifələri* | |
|---|---|
| 1 | Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi; |
| 2 | dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarət edilməsi; |
| 3 | dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi; |

| *Dövlət qulluğunun prinsipləri* | |
|---|---|
| 1 | qanunçuluq; |
| 2 | qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi; |
| 3 | dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi; |
| 4 | yuxarı dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı dövlət orqanları və vəzifəli şəxslər tərəfindən mütləq yerinə yetirilməsi; |
| 5 | bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması; |
| 6 | dövlət qulluğuna qəbulun şəffaflığı; |
| 7 | vətəndaşların dövlət qulluğuna müsabiqə və müsahibə əsasında qəbul edilməsi; |
| 8 | vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi; |
| 9 | Irqindən, dinindən, dilindən və s. asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi; |
| 10 | dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədilə onların rotasiyası; |
| 11 | dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, onların özləri və ailələri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi; |
| 12 | qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluqçusunun hərəkətlərinə görə dövlət orqanının cavabdehlik daşıması; |

## Dövlət Qulluğunu İdarəetmə Şurası

| *Səlahiyyətləri* | | *Üzvlərin təyin olunması* | *Fəaliyyəti* |
|---|---|---|---|
| 1 | bu Qanunun tətbiqinə nəzarət; | 6 üzvü Kons. Məhk. sədri | Şura dövlət orqanı deyil və onun üzvləri öz səlahiyyətlərini ictimai əsaslarla həyata keçirirlər. Səlahiyyətləri qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən edilir. Qərarları məcburidir (müvafiq təyin edən) |
| 2 | dövlət qulluğunun normativ-metodiki təminatı; | 6 üzvü Prezident | |
| 3 | dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etmək; | 6 üzvü Milli Məclisin sədri | |

## Dövlət qulluğu haqqında Qanunvericilik ibarətdir

| | |
|---|---|
| 1 | AR Konstitusiyası |
| 2 | Dövlət qulluğu haqqında ARQ |
| 3 | AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr |
| 4 | Dövlət qulluqçularının etik davranış qaydaları haqqında ARQ |
| 5 | dövlət qulluğunu hüquqi cəhətdən tənzim edən və dövlət qulluqçularının hüquqi vəziyyətinin xüsusiyyətlərini müəyyən edən digər qanunvericilik aktları |

## Dövlət orqanının maliyyə mənbələri:

- Azərbaycan Respublikasının dövlət büdcəsi;
- Naxçıvan Muxtar Respublikasının büdcəsi;
- sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsi;
- işsizlikdən sığorta fondunun büdcəsi;

Dövlət orqanının **bölməsi** bu orqanın qanunvericilik aktlarında nəzərdə tutulmuş, yaxud müəyyən edilmiş qaydada təsis olunan elə struktur hissəsidir ki, özünə həvalə edilmiş funksiyalar çərçivəsində **həmin orqanın səlahiyyətlərinin** bir hissəsini həyata keçirir.

Dövlət orqanlarının kateqoriyaya bölünməsi:
**- statusu,** **- yurisdiksiyası,** **- iyerarxiyası** nəzərə alınmaqla bölünür.

**Orqanların kateqoriyaya bölünməsi**

| Dövlət orqanının kateqoriyası | Səlahiyyət mənbəyi |
|---|---|
| Ali | AR Konstitusiyasının 7-ci maddəsinin 3-cü hissəsinə əsasən müəyyən edilir. |
| 1 | AR Konstitusiyası, AR Konstitusiya qanunları və AR qanunları ilə müəyyən edilir. |
| 2 | AR Konstitusiyası, AR Konstitusiya qanunları, AR qanunları və AR Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilir. |
| 3 | AR Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə və qanunla müəyyən edilir. |
| 4 | AR Konstitusiyasının 113-cü, 120-ci və 124-cü maddələri ilə və qanunla müəyyən edilir. |
| 5 | AR Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə müəyyən edilir. |

**Dövlət qulluğu vəzifəsi** dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir.

Dövlət orqanlarında vəzifələr funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq **inzibati** və **yardımçı** vəzifələrə bölünür.

**İnzibati** və **yardımçı** vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir.

*** Dövlət orqanlarının **aparatının** və onların **bölmələrinin** adları **MÜVAFİQ icra hakimiyyəti orqanı** tərəfindən müəyyən olunur.

*** İnzibati və yardımçı vəzifələrin təsnifat toplusuna daxildir:

- vəzifələrin təsnifatları və adları;
- ixtisas dərəcələri;
- vəzifələrin tutulması şərtləri

haqqında məlumatlar.

** İNZİBATİ vəzifə iddiasında olan şəxsin müvafiq **ali təhsili** olmalıdır. Həmin şəxsin ***başqa ali təhsili*** olduqda, o, ixtisasını dəyişdirib iddiasında olduğu inzibati vəzifənin **profilini öyrənməlidir**.

** YARDIMÇI vəzifə iddiasında olan şəxsin **TAM ORTA TƏHSİLİ** olmalıdır.

- **İnzibati vəzifə tutan** və **hakimiyyət səlahiyyətləri alan** dövlət qulluqçusu **dövlət vəzifəli şəxsdir**.

Dövlət qulluqçularına verilən vəzifə maaşının **mənbələri:**

| |
|---|
| Azərbaycan Respublikasının dövlət büdcəsi; |
| Naxçıvan MR büdcəsi; |
| İşsizlikdən sığorta fondunun büdcəsi; |
| Sosial müdafiəni və təminatı həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsi; |

*** Dövlət qulluqçusunun **ANDI**:

- Andiçmə təntənəli şəraitdə Azərbaycan Respublikasının ***Dövlət bayrağı altında*** Azərbaycan Respublikasının Konstitusiyasına ***əl basmaqla*** həyata keçirilir.
- Andiçmə **bir dəfə** olur. And içən dövlət qulluqçusu andın mətnini **imzalayır** və bu sənəd onun **şəxsi işində** saxlanılır.
- And **Azərbaycan Respublikası** ilə **dövlət qulluqçusu** arasında açıq **hüquqi borc** və **sədaqət** münasibətlərini təsdiq edir.

- Dövlət qulluğunun ayrı-ayrı növlərində andın status xüsusiyyətləri AR-nın qanunvericilik aktlarında müəyyən edilir.
- Yardımçı dövlət qulluğu vəzifəsinə qəbul edilənlər **and içmirlər**.

*** Dövlət qulluqçusunun dövlət qulluğu keçdiyi dövr ərzində **yalnız bir şəxsi işi** tərtib edilir və aparılır.
** **ŞƏXSİ İŞİN** aparılması tələblərini pozan şəxslər AR **İnzibati Xətalar Məcəlləsində** nəzərdə tutulmuş məsuliyyəti daşıyırlar.

* **XİDMƏTİ VƏSİQƏ** dövlət qulluqçusunun **tutduğu vəzifəsini** və ona verilmiş **ixtisas dərəcəsini** təsdiqləyən rəsmi sənəddir.

Dövlət qulluqçusunun **İXTİSAS DƏRƏCƏSİ**:
1. onun ixtisas səviyyəsini göstərir,
2. inzibati vəzifə tutmaq hüququ verir,
3. vəzifə maaşına əlavə haqq almaq hüququ verir,
4. sosial təminatlardan istifadə etmək hüququ verir.

**İxtisas dərəcələri:**

| | **İnzibati vəzifələr (*ali-7 təsnifat*)** | **Yardımçı vəzifələr (*4 təsnifat*)** |
|---|---|---|
| 1 | həqiqi dövlət müşaviri | dövlət qulluğunun baş referenti |
| 2 | 1-ci dərəcə dövlət müşaviri | dövlət qulluğunun böyük referenti |
| 3 | 2-ci dərəcə dövlət müşaviri | dövlət qulluğunun 1-ci dərəcə referenti |
| 4 | 3-cü dərəcə dövlət müşaviri | dövlət qulluğunun 2-ci dərəcə referenti |
| 5 | dövlət qulluğunun baş müşaviri | dövlət qulluğunun 3-cü dərəcə referenti |
| 6 | dövlət qulluğunun müşaviri | dövlət qulluğunun kiçik referenti |
| 7 | dövlət qulluğunun kiçik müşaviri | |
| 8 | 1-ci dərəcə dövlət qulluqçusu | |
| 9 | 2-ci dərəcə dövlət qulluqçusu | |
| 10 | 3-cü dərəcə dövlət qulluqçusu | |
| 11 | kiçik dövlət qulluqçusu | |

Mavi rəngdə olanları **PREZİDENT** verir, qalan bütün hamısını **ORQANIN RƏHBƏRİ** verir.

**Dövlət qulluqçularına daha yüksək və növbəti ixtisas dərəcəsinin verilməsi tələbləri:**

| Təsnifat | Dövlət qulluğunda staj | Təsnifatda staj | İxtisas dərəcəsində staj | Yardımçı vəzifələr |
|---|---|---|---|---|
| 1 | azı 10 il | azı 3 il | | ardıcıl 2 il |
| 2 | azı 10 il | azı 3 il | | ardıcıl 2 il |
| 3 | | azı 4 il | 3 il | ardıcıl 1 il |
| 4 | | azı 4 il | 3 il | ardıcıl 1 il |
| 5 | | azı 4 il | 3 il | |
| 6 | | azı 4 il | 2 il | |
| 7 | | | 2 il | |

**Dövlət qulluqçularının:**

| VƏZİFƏLƏRİ | HÜQUQLARI | MƏHDUDİYYƏTLƏR |
|---|---|---|
| qanunvericiliyi və dövlət orqanlarının qəbul etdikləri normativ hüquqi aktları həyata keçirməli; | vəzifə borcunu yerinə yetirmək üçün dövlət orqanlarından, ictimai birliklərdən, müəssisə, idarə və təşkilatlardan müəyyən edilmiş qaydada informasiya, material tələb etmək və almaq; | dövlət orqanlarında əlavə ödənişli (müvəqqəti əvəz edilməsi halları istisna olmaqla), heç bir seçkili və ya təyinatlı vəzifə tutmağa; |
| rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmr, sərəncam və göstərişləri yerinə yetirməli; | dövlət qulluqçusunu vəzifəyə təyin və vəzifədən azad etmək hüququna malik olan vəzifəli şəxsdən öz qulluq vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların icrası üçün şərait yaradılmasını tələb etmək; | dövlət qulluğuna xitam verildikdən sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə; |
| dövlət orqanında qulluq reqlamentinə riayət etməli; | dövlət məvacibi almaq; | dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa; |
| başqa dövlət qulluqçularının işini çətinləşdirən, qulluq keçdiyi dövlət orqanının nüfuzunu aşağı salan hərəkətlərə yol verməməli; | əlavə təhsili və qulluq vəzifələrinin yerinə yetirilməsinə münasibəti nəzərə alınmaqla qulluqda irəli çəkilmək və ya dövlət maaşının məbləğinin artırılması iddiasında olmaq; | tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə; |
| vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı və səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etməli; | elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq; | elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmağa; |
| lazım gəldikdə öz ixtisası hüdudunda rəhbərin göstərişi ilə əlavə iş görməli; | əmanətlərdən, qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürmək; | qulluq keçdiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getməyə; |

| | | |
|---|---|---|
| dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə, dövlət qulluğuna xitam verildikdən sonra da saxlamalı; | şərəf və ləyaqətinə xələl gətirən məlumatları təkzib etmək üçün xidməti araşdırma aparılmasını tələb etmək; | qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməyə; |
| vəzifə borcunun yerinə yetirərkən daxil olan və vətəndaşların şəxsi və ailə həyatı, şərəf və ləyaqəti ilə bağlı məlumatları gizli saxlamalı və qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə, onların verilməsini tələb etməməli; | ilk tələbdən öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməli olan rəylər və digər sənədlərlə tanış olmaq, habelə öz izahatlarının şəxsi işə tikilməsini tələb etmək; | dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə; |
| qulluq keçdiyi orqanın rəhbərinə hər il öz gəlirləri və əmlak vəziyyəti haqqında maliyyə hesabatı verməli, orada əlavə gəlirlərin mənbəyini, növünü və məbləğini göstərməli; | müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarını və mənafeyini müdafiə etmək; | Seçki komissiyasının həlledici səs hüquqlu üzvü dövlət qulluğunda ola bilməz. |
| qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada müvəqqəti başqa yaşayış yerinə keçməli, başqa yerdə qulluq keçməli və ya başqa vəzifələri icra etməli; | qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa və bu, dövlət qulluqçusu funksiyalarının icrası ilə bir araya sığmayan deyilsə, ictimai birliklərdə üzv olmaq; | Məhdudiyyətləri pozduqda qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, xəbərdarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək gəldiyi qərar barəsində qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir |
| qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada öz fiziki və əqli qabiliyyətinin və ya tapşırılan funksiyaların icrasına yararlı olmasının müəyyən edilməsi üçün tibbi komissiyalarda müayinə keçməli; | qulluq keçdiyi dövlət orqanının rəhbərindən aldığı icrası məcburi olan göstəriş və ya əmrin qanuniliyi və ya dürüstlüyü dövlət qulluqçusunda şübhə doğurursa, həmin göstərişin və ya əmrin yazılı şəkildə ona verilməsini tələb etmək; | |
| etik davranış qaydalarına əməl etməli; | həmkarlar ittifaqlarında birləşmək; | |
| | qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət vəsaiti hesabına təhsil almaq və müvafiq təlim keçmək, təhsil üçün məzuniyyət almaq; | |
| | qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada məzuniyyətlər, özünün və ya ailə üzvlərinin əlilliyi , sağlamlıq imkanlarının məhdudluğu ilə əlaqədar pensiyalar və müavinətlər almaq | |

***** Dövlət məvacibinin məbləği asılıdır:**

- səlahiyyət həcmindən;
- tələb olunan peşəkarlıq səviyyəsindən;
- məsuliyyət dərəcəsindən;
- qulluq stajından;

*** Dövlət **MƏVACİBİ** **ibarətdir:**
- vəzifə maaşından;
- mükafatlardan;
- vəzifə maaşına əlavələrdən;

** Qulluq şəraiti həyat və sağlamlıq üçün **təhlükəli**, yaxud **xüsusilə ağır** olan dövlət orqanlarında vəzifə maaşları üçün artıq əmsal müəyyən edilir.
** Dövlət qulluqçularının vəzifə maaşlarına Azərbaycan Respublikasının Qanununa müvafiq surətdə **yerli əmsallar** müəyyən edilir.
** Dövlət qulluqçuları üçün **hakimiyyət səlahiyyətlərinin icrasına** görə də əlavə haqq müəyyən edilir.

Dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə xidmətin ikinci ilindən başlayaraq əlavə haqq verilir.
Əlavə haqqın verilməsi həmçinin **şamil edilir:**
1) Baş nazirə;
2) Baş nazirin müavinlərinə;
3) NMR Baş nazirinə;
4) NMR Baş nazirinin müavinlərinə;
5) AR mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və müavinləri;
6) NMR mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və müavinləri;
7) Yerli icra hakimiyyəti orqanının başçılarına;

Azərbaycan Respublikasının **xarici ölkələrdə** fəaliyyət göstərən **səfirlik** və **konsulluqlarında** təyin olunan **ticarət nümayəndələrinə** və onların **aparatlarının işçilərinə** **şamil olunmur**.

Dövlət qulluqçusunun **əlavə təhsil** almasının əsasları:
- ***dövlət qulluğunda daha yüksək vəzifəyə təyin edilməsi;***
- ***dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilməsi;***
- ***dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi;***
- ***dövlət qulluqçusunun şəxsi təşəbbüsü;***

Əlavə təhsil alması həmin **dövlət orqanının rəhbəri** tərəfindən müəyyən edilir. Dövlət qulluqçusunun əlavə təhsil aldığı müddət onun **qulluq stajına daxildir.** Əlavə təhsil almaq üçün **xarici ölkələrə ezam** edilə bilər.

| | Peşə hazırlığına və ixtisas artırılmasına cəlb edilən dövlət qulluqçuları: |
|---|---|
| 1 | AR Konstitusiya Məhkəməsində işləyənlər |
| 2 | AR Ali Məhkəməsində işləyənlər |
| 3 | AR Məhkəmə-Hüquq Şurasında işləyənlər |
| 4 | Ombudsmanin aparatında işləyənlər |
| 5 | 2, 3, 4 və 5-ci kateqoriya orqanlarda ali hüquq təhsili tələbi olan vəzifələrdə işləyənlər |

Dövlət qulluqçularının və onların ailə üzvlərinin pensiya təminatı **ƏMƏK PENSİYALARI** haqqında Qanunla tənzimlənir. Əmək pensiyasına əlavələr təyin edilməsi üçün dövlət qulluğunda minimum **15 İL QULLUQ STAJI** olmalıdır.

Dövlət qulluqçusunun **MÜKAFATLANDIRILMASININ** növləri:
1) Vətənə xidmətə görə ordeninin 3 dərəcəsi
2) Dövlət qulluğunda fərqlənməyə görə medalı
3) Digər orden və medallar;
4) AR fəxri adlarının alınması;

**İntizam tənbeh tədbirləri:**

| | |
|---|---|
| 1 | Töhmət ***(onu əvəz edən şəxs də verə bilər)*** |
| 2 | bir il müddətinədək vəzifə maaşının 5 faizindən 30 faizinədək azaldılması; |
| 3 | Eyni təsnifatdan aşağı maaşlı vəzifəyə keçirilməsi |
| 4 | Aşağı təsnifatdan olan vəzifəyə keçirilməsi |
| 5 | İxtisas dərəcəsinin bir pillə salınması |
| 6 | Dövlət qulluğundan azad edilməsi |

***(hamısı 1 aydan gec olmayaraq verilir)***

Bu tədbirlər dövlət **orqanının rəhbəri** tərəfindən tətbiq edilə bilər, sadəcə **TÖHMƏT** rəhbəri **<u>əvəz edən</u>** tərəfindən də verilə bilər. İntizam tənbehi aşkar edildiyi gündən **1 ay keçənədək** verilə bilər. Tənbeh qərarından **7 iş günü** ərzində müvafiq icra hakimiyyəti orqanına şikayət verilə bilər. Müvafiq İHO bu barədə **10 iş günü** ərzində qərar qəbul etməlidir.
*** Dövlət qulluqçusunun qanuni hərəkətlərinə görə dəymiş zərər maaş verilən **MƏNBƏLƏRİN** hesabına ödənilir.

Şəxs aşağıdakı hallarda dövlət qulluğuna **QƏBUL EDİLƏ BİLMƏZ**:

1**) onun fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilərsə**;

2) **məhkumluğu ödənilməmiş və ya götürülməmişsə;**

3) **bilavasitə tabeliyində və ya nəzarəti altında işləyəcəyi dövlət qulluqçusu ilə yaxın qohumluq və ya qudalıq (ər-arvadlar, onların valideynləri, qardaşları, bacıları, övladları) əlaqəsi olduqda;**

4) **barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olarsa;**

Dövlət qulluqçuları korrupsiya hüquqpozmalarını törətdikdə intizam məsuliyyətinə cəlb oluna bilərlər.

**Müsahibə keçirilməsi qaydaları:**
Elandan **30 gün** müddətində müraciət edilir.
Sənədlərin qəbulu başa çatdıqdan sonra **30 gün** ərzində keçirilir.
Müsabiqədən uğurla keçən namizəd **5 iş günü** ərzində orqanın rəhbərinə təqdim olunur.
Müvafiq orqan vakant vəzifə yarandıqdan sonra **1 ay ərzində** müsabiqə, ümumi müsahibə və ya daxili müsahibə elan edir.
Müsahibə barədə elan müsahibənin keçirilməsi tarixinə **1 ay** qalmış verilir.
Müsahibədə ən çox iki təsnifat aşağı vəzifələrdəki dövlət qulluqçuları iştirak edə bilər.

Müsahibə zamanı nəzərə alınmalıdır:
**1)** ixtisas dərəcəsi
**2)** müvafiq vəzifənin tələbinə uyğun əlavə təhsilalma

*** Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və ya konsulluğunda ticarət nümayəndəsi vəzifəsinin tutulması **müsahibə keçirilməklə** və ya **qulluqda yüksəliş** yolu ilə həyata keçirilir.
*** **Ali kateqoriyalardakı** ali, 1, 2, 3-cü təsnifat vəzifələrin tutulması müsahibə keçirilməklə və ya qulluqda yüksəliş yolu ilə həyata keçirilir.

Müsahibə nəticələrindən **İNZİBATİ** qaydada: 1) müvafiq icra hakimiyyətinin yaratdığı quruma
2) məhkəməyə şikayət verilə bilər.

İş saatı həftəlik **40 SAAT**. Ayda 5 saat əlavə haqqı ödənilmədən işə cəlb oluna bilər. İnzibati vəzifə üzrə ildə bir dəfə **30 təqvim** günü **ÖDƏNİŞLİ** məzuniyyət verilir.
Əlavə məzuniyyətlər: **(ÖDƏNİŞLİ)**

| | |
|---|---|
| 5 – 10 ilədək əmək stajı | 2 təqvim günü |
| 10 – 15 ilədək əmək stajı | 4 təqvim günü |
| 15 ildən çox əmək stajı | 6 təqvim günü |

ÖDƏNİŞSİZ məzuniyyət: 1) **Öz arzusu** ilə 2) **dövlət orqanı rəhbərinin** razılığı ilə

| | **Xidməti ezamiyyətə göndərilərkən təminatlar** |
|---|---|
| 1 | mehmanxanada və ya xidməti yaşayış sahəsində yer, altı aydan çox müddətə ezamiyyətə göndəriləndə isə ayrıca xidməti mənzil sahəsi; |
| 2 | iş yeri, rabitə vasitələrindən istifadə etmək imkanı; |
| 3 | digər zəruri texniki xidmətlər və sosial-məişət xidmətləri, o cümlədən onu göndərən orqanın vəsaiti hesabına xidmətlər |

Yardımçı vəzifələr tutun dövlət qulluqçularının əmək münasibətləri bu Qanunun müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

Hər **<u>təqvim ilinin sonunda</u>** dövlət qulluqçusunun **BİLAVASİTƏ RƏHBƏRİ** tərəfindən xidməti fəaliyyətinin qiymətləndirilməsi aparılır.

| İşçilərin qiymətləndirmə meyarları | Rəhbərlər üçün əlavə meyarlar |
|---|---|
| Peşə bilikləri | Təhlil və proqnozlaşdırma |
| Xidməti vəzifələrə münasibət | İdarəetmə |
| Təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı; | Kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı |
| Yaradiciliq və təşəbbüskarlıq | Komanda qurmaq bacarığı |
| Əmək intizamı | |
| İş təcrübəsi və onu bölüşmə | |
| Kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər | |
| Nəticələri xidməti fəaliyyətin qiymətləndirilməsi barədə **sənədlə** rəsmiləşdirilir və şəxsi işə **ƏLAVƏ** | |

Dövlət qulluqçusu **qulluqda yüksəliş** yolu ilə, habelə **müsahibə** və ya **müsabiqə** nəticəsində dövlət qulluğunda **irəli** çəkilə bilər.
İrəli çəkilmək hüququ: 1) dövlət qulluqçularının öz vəzifələrini müvəffəqiyyətlə və vicdanla yerinə yetirməsi
2) vakant vəzifə olması
3) habelə vakant vəzifənin tələblərinə uyğun olaraq əlavə təhsilalmanın nəticələri nəzərə alınmaqla

Yuxarı yaş həddi **65-dir.** Orqanın **RƏHBƏRİ** tərəfindən hər dəfə **1 il** olmaqla cəmi **5 il** uzadıla bilər.
İnzibati vəzifələrin **ali-üçüncü** təsnifatına aid vəzifələrdə qulluq keçən dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq **dövlət orqanının razılığı** əsasında **5 ildən artıq** uzadıla bilər.

**Yaş həddi uzadılan işçilərin sayı**

| | |
|---|---|
| Dövlət orqanının vahid sistemini təşkil edən qurumların işçilərinin ümumi sayına görə | 15 faizindən artıq ola bilməz |
| Dövlət orqanının aparatının və tabeliyində olan qurumun çalışma müddəti uzadılmış işçilərinin sayına görə | 2 faizindən artıq ola bilməz |
| Dövlət orqanının aparatında və ya tabeliyində olan qurumunda dövlət qulluqçularının sayı 100 nəfərdən az olduqda | Uzadılan işçilərin sayı 2 ştat vahidinə qədər yuvarlaqlaşdırılır |

Dövlət qulluqçusunun dövlət qulluğunda olma müddətinin uzadılmasına **onun razılığı** əsasında yol verilir.

**Yaş həddi uzadılarkən nəzərə alınır:**
1) dövlət qulluğunda intizam tənbeh tədbirlərinin tətbiq edilməməsi;
2) elmi dərəcənin və ya elmi adın olması;
3) dövlət təltifi ilə təltif edilmə;
4) attestasiyadan üç dəfə müvəffəqiyyətlə keçmə

**Dövlət qulluğuna xitam verilməsi halları:**

| |
|---|
| dövlət qulluqçusunun öz arzusu ilə; |
| dövlət orqanı ləğv edildikdə; |
| dövlət qulluğunda olmanın yaş həddinə çatdıqda; |
| Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə; |
| dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə; |
| qanunvericiliyin tələbləri pozularaq işə qəbul edildikdə; |
| dövlət qulluqçusunun aldığı sertifikatın qüvvədəolma müddəti bitdikdə və dövlət qulluqçusu növbəti sertifikat ala bilmədikdə; |
| qanunvericilik və ya yerli özünüidarə orqanlarına seçildikdə, habelə hakim təyin edildikdə, əgər onlar həmin vəzifələrdən imtina etmədikdə; |
| qanunvericilikdə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar dövlət qulluqçusu əmək funksiyasını yerinə yetirə bilmədikdə; |
| məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda; |
| dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə; |
| intizam tənbeh tədbiri tətbiq edilərək dövlət qulluğundan azad edildikdə; |

Dövlət qulluqçusu pensiya yaşına çatmasına görə öz arzusu ilə dövlət qulluğundan çıxdıqda ona qanunvericiliyə uyğun olaraq digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ümumi qaydada hesablanmış aylıq pensiyasının **6 misli** məbləğində **birdəfəlik** haqq verilir və bu məbləğdən **vergi tutulmur**.

Dövlət orqanı rəhbərinin dövlət qulluğunu davam etdirmək barədə **qərarı olarsa**, öz arzusu ilə dövlət qulluğundan çıxmaq barədə **ərizəni verdiyi gündən** **1 ay** ərzində dövlət qulluğunu davam etdirməlidir. **Zərurət olduqda** orqanın rəhbəri **1 ay da uzada bilər**.

Dövlət qulluğu ilə bağlı digər məsələlər **AR ƏMƏK Qanunvericiliyi** ilə tənzimlənir.

Qəbul olunub: **21 iyul 2000-ci il** Qüvvəyə minib: **1 sentyabr 2001-ci il.**